# Türkiyə böyük güc mərkəzinə çevrilib

***Dünyada elə iki dövlət tapmaq çətindir ki, tərəfdaşlıq münasibətləri Azərbaycan–Türkiyə kimi nümunəvi səviyyədə olsun. Ölkələrimiz beynəlxalq aləmdə vahid platformadan çıxış edir, bir-birinə qarşı son dərəcə təəssübkeş davranır, sırf sülhpərvər siyasət yürüdür, bütün prinsipial məsələlərdə haqlı, obyektiv mövqe nümayiş etdirirlər.***



Prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri dövründə bu yaxınlıq daha da artmış, möhkəmlənmişdir. İki ölkənin yaxınlığı Avrasiyada sülh, təhlükəsizlik və inkişafı hədəfləyən fundamental strategiji önəm kəsb edir. Bütün dövrlərdə böyük dövlətlərin maraqlarının toqquşduğu Anadolu və Qafqazda bu gün tamamilə fərqli bir mənzərənin yaşanması məhz dünya çapında Türkiyə və Azərbaycanın gücünün artması ilə şərtlənir.

Fəxrlə qeyd edək ki, inişilin payızında məhz Türkiyənin mənəvi və siyasi dəstəyi ilə Azərbaycan 44 günlük Zəfər yürüşünə başlayaraq işğalçı erməni ordusunu diz çökdürüb və Qarabağın, Şərqi Zəngəzurun azadlığını təmin edib. Ötən il iyunun 15-də Şuşa Bəyannaməsi ilə təsdiqlənmiş strateji müttəfiqliyimiz regionumuzun sülh və sabitlik məkanına çevrilməsində mühüm rol oynayır. Hazırda orada aparılan bərpa-quruculuq işləri, mühüm layihələr Türkiyə şirkətlərinin yaxından iştirakı ilə reallaşır. Ötən il rekord müddətə tikilmiş Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində, Zəngəzur dəhlizinin bir hissəsi olan Horadiz-Cəbrayıl-Zəngilan–Ağbənd avtomobil yolunun və Zəngilanda "DOST Aqropark"ın təməlinin qoyulmasında cənab İlham Əliyevlə bərabər cənab Rəcəb Tayyib Ərdoğan da iştirak edib.

İqtisadi sahədəki yüksək inkişafın növbəti real nümunəsi mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılışını etdikləri Rize–Artvin Hava Limanının tikilməsidir. Yeni hava limanına ilk dəfə göyərtələrində məhz iki qardaş ölkə başçılarının olduqları təyyarələrin eniş etməsi dərin rəmzi məna daşıyırdı. Bu,əməkdaşlığımızın bütün sahələrdə uğurla inkişaf etdiyinə daha bir işarə idi.

Azərbaycan rəhbəri İlham Əliyev mərasimdəki şıxışında qardaş Türkiyənin gündən-günə güclənməsindən səmimi məmnunluq hissini ifadə etdi: "Bütün bunun təməlində aparılan siyasət, əziz qardaşımın böyük əməyi, zəhməti vardır. Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda, ölkə içində də böyük layihələr icra etməyə qadirdir. Bunların arasında xüsusilə insanlara xidmət göstərən layihələri qeyd etmək istərdim. Hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar – bütün bunlar Türkiyənin inkişafını, gücünü göstərən amillərdir və bütün bu işlərin mərkəzində insan amili dayanır, dövlət siyasəti dayanır".

Beynəlxalq qurumlardan heç bir yardım almadan Qarabağın yaralarını sağaldan, o yerləri dirçəldən Azərbaycan da nəyə qadir olduğunu dünyaya göstərir. Azərbaycan hər zaman Türkiyənin, Türkiyə isə Azərbaycanın yanındadır. İnamla söyləmək olar ki, son zamanlar iki ölkənin müxtəlif sahələrdə birgə həyata keçirdikləri layihələr Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcəkdir.

***Nəbi İSKƏNDƏROV,***
***Azərbaycan Təhsil İşçiləri***
***Azad Həmkarlar İttifaqı***
***Cəlilabad rayon komitəsinin sədri***

Xalq qəzeti .- 2022.- 17 may.- S.3.